

■ Arifə İLKBAHAR

## DASTAN OLAQ DİLLƏRDƏ

Tut əlimdən sevgilim,
Bir sığal çək tellərə.
Dolaşaq çəmənləri,
Nəğmə deyək güllərə.

Unudaq qəm, kədəri,
Xoş açaq hər səhəri,
Gəzək kəndi, şəhəri,
Qonaq olaq ellərə.

Birlikdə deyib-gülək,
Gülsün hər arzu-dilək,
Elə sevib-sevilək,
Dastan olaq dillərə.

## OLDUN

Ömrümə gəlişinlə,
Baharım, yazım oldun.
Açıldım çiçək-çiçək,
Sən işvə-nazım oldun.

Ürəyim görən gözüm,
Dilimdə şirin sözüm,
Nura boyanan üzüm,
Ən xoş avazım oldun.

Görməyəndə üzünü,
İtirdim mən dözümü,
Yaşla boğdum gözümü,
Yanıqlı sazım oldun.

## SƏNİ ÖZ ÖMRÜM BİLDİM

Elə bilirdim daha,
Baharım xəzan oldu.
Arzularım qərib tək,
Dumanda azan oldu.

Elə bilirdim həyat,
Dözülməzdir, möhnətdir.
Qaradır, gecələr tək,
Başdan-başa zülmətdir.

Yox, yox yanılırmışam,
Həyat gözəlmiş demə.
Sənin tək yarı olan,
Düşərmi, dərdə-qəmə?

Yaşamaq nədir, bildim,
Həm sevindim, həm güldüm.
Elə sevdim-bağlandım,
Səni öz ömrüm bildim.

## YERİ VAR

Sən ey, gözləri mürgülü,
Saçında daraq yeri var.
Sənsiz zülmət olsa həyat,
Gözündə çıraq yeri var.

Oturmuşuq biz üz-üzə,
Sevgiylə baxıb göz-gözə,
Nəğmə deyək sevgimizə,
Gülüb oynayaq, yeri var.

Çox keçdik uzaq yolları,
Unutduq qeylü-qalları,
Sənə uzanan qolları,
Boynuna saraq, yeri var.

## YOL SƏNƏ ÇIXIR

Yol alıb gedirəm ayrı məkana,
Bir də görürəm ki, yol sənə çıxır.
Neylim, bacarmıram sənsiz qalmağı,
Sənsizlik qəlbimi ovcunda sıxır.

Sinəmdə alışan ocaq kimisən,
Eşq dolu könlümün sarı simisən,
Ömrümün ləzzəti, dadı-tamı sən.
Bir anlıq həsrətin qəlbimi yaxır.

Gözlərim axtardı, ürəyim tapdı,
Mənə öz eşqimdən bir saray yapdı,
Bu ayrı məsələ, ayrı hesabdı,
Şükür, nəticəsi bəllidir axır.

Qəm-qüssə əlindən qoparıb məni,
Dağıtdın ömrümdən dumanı, çəni,
Ruhun sinəm bilib yaşıl çəməni,
Üzüb çiçəkləri yaxama taxır.

## HƏSRƏTƏM

Həsrətəm sevgilim gülüşlərinə,
Sənsiz ürəyimin sevinci kəmdi,
Dikilib yoluna həsrət gözlərim,
Birində dumandı, birində çəndi.

Unuda bilmərəm bircə an səni,
Ay mənim eşqimin yurdu, vətəni.
Sən mənim dünyamsan məhəbbət dolu,
Rəhm et ayrılığa qul etmə məni.

Desəm ki, eşqindir yaşadan məni,
Qəlbinə heç yaxın qoyma şübhəni.
Gəl mənim ömrümə ilk bahar kimi,
Ürəkdən oxuyum bu eşq nəğməmi.

## AÇILIR PƏNCƏRƏM DƏNİZƏ SARI

Açılır pəncərəm dənizə sarı,
Uzaq üfüqlərin əksi gözümdə.
Bir zaman sahildə qoşa gəzirdik,
Günəş nurlanırdı sənin üzündə.

Açıqdır pəncərəm hər gündüz, gecə,
Dənizdən bir niskil qoxusu gəlir.
Bilmirəm həsrətə dözüm mən necə,
Gülər gözlərimdən axır su gəlir.

Sanki gözlərimdə çağlayır dəniz,
Sənsiz möhnətdəyəm, təlatümdəyəm.
Ağlayır gözümdə, ağlayır dəniz,
Bir sınıq kamanam yanıqlı neyəm.

## KÖNLÜNÜ BİR TƏMİZ EŞQƏ VERƏSƏN

Ömür çox qısadır, həm də çox gözəl,
Sevəsən həyatı gözəl görəsən.
Bütün pisliklərdən uzaq dayanıb,
Könlünü bir təmiz eşqə verəsən.

Qəlbində rəng-rəng güllər açıla,
Bələnib ətrinə xoşhal olasan.
Nurunu dünyaya yayasan hər an,
Dərdli könüllərə məlhəm olasan.

Acıya, kədərə sinə gərərək,
Tanrının verdiyi qismətlə barış.
Sevgiylə döyünsün sinəndə ürək,
Yaxşılıq uğrunda yan, odlan, alış.

## SƏNDƏN İNCİYƏN DEYİLƏM

Sən mənim bahar, yazımsan,
Nəğməli könül sazımsan,
Dilimdə xoş avazımsan,
Səndən inciyən deyiləm.

Şimşək tək çaxsan da belə,
Yandırıb yaxsan da belə,
Qəlbimi sıxsan da belə,
Səndən inciyən deyiləm.

Yoxdur gözüm bir kimsədə,
Unutmam səni heç vədə,
Həsrətin məni didsə də,
Səndən inciyən deyiləm.

## YAZ ƏTRİ GƏLDİ

Bir ilk bahar günü görüşdük sənnən,
Güllər çiçək acdı yaz ətri gəldi.
Ömür təzələndi ruh təzələndi,
Ən şirin, ən gözəl, söz ətri gəldi.

Elə bağlandı ki, köhnə yaralar,
Həyatda sevməkdən gözəl de nə var,
Özümə sadiq dost, həm vəfalı yar,
Ömrümə ömürlük naz ətri gəldi.

Çox gəzdik dolaşdıq biz diyar-diyar,
Nəğməyə çevrildi bütün misralar,
Ən gözəl bəstələr, gözəl mahnılar,
Oldu qanadlı quş saz ətri gəldi.

Şükür olsun bu günə bu xoş həyata,
Səninlə mən çatdım arzu murada,
Mənim taleyimə gözəl dünyada,
İlahi sevginin öz ətri gəldi.

## ELƏ BİR DÜNYAMSAN Kİ

Elə bir dünyamsan ki,
Tayın, bərabərin yox.
Səni elə sevirəm,
İnan, öz canımdan çox.

Sən oldun bu həyatda,
Mənə yaşam andıran,
Yıxılan qollarımdan,
Tutub göyə qaldıran.

Sənin sevginlə bildim,
Danışmağı, gülməyi.
Sən öryətdin dərdimi,
Səninlə bölüşməyi.

Düz yol göstərdin mənə,
Həm sol, həm sağım, oldun.
Yollarıma nur saçan,
Ümid çırağım oldun.

## DEMƏ

Elə bilirdim ki, o, məni sevir,
Sevgisi, istəyi yalanmış, demə!
İnanıb sözünə, könül vermişdim,
Ümidim puç imiş, talanmış demə!

Elə bilirdim ki, göy üzü mənim,
Gül-çiçəklə dolu çölüm, çəmənim,
Könlümdəki gözəl gülüm, gülşənim,
Gizli bir xəzandan solanmış, demə!

İçimi göynətdi, qəlbimi qırdı,
Bir anda yad oldu, uzaqda durdu,
Ürəyim hər zaman onla vururdu,
Məhəbbət sarayım viranmış, demə!

